DDP-YD/ETD (2022) 221

Strasburq, 23 sentyabr 2022-ci il

# AZƏRBAYCANDA GƏNCLƏRLƏ İŞLƏYƏN TƏLİMÇİLƏR ÜÇÜN TƏLİM (TRAYAZE)

Azərbaycanda təlimçilər və gənclər işçiləri üçün qeyri-formal təhsil fəaliyyətləri üzrə uzunmüddətli təlim kursu

Noyabr 2022-ci il – Dekabr 2023-cü il

Birinci seminar
23-28 noyabr 2022-ci il, Bakı, Azərbaycan

## İŞTİRAKÇILARA MÜRACİƏT

## ÜMUMİ MƏLUMAT

Avropa Şurasının Gənclər Departamenti və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi birlikdə gənclər üçün qeyri-formal təhsilə əsaslanan tədris fəaliyyətlərində iştirak edən azərbaycanlı təlimçilər üçün uzunmüddətli təlim kursu (TRAYAZE) təşkil edirlər.

Bu, Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planının prioritetlərinə uyğundur. Bu fəaliyyətin sayəsində Azərbaycanda gənclərlə bağlı qeyri-formal tədris fəaliyyətlərini, o cümlədən insan hüquqları sahəsində təhsil yanaşmalarını dəstəkləmək və inkişaf etdirmək üçün səriştəli təlimçilərin sayının artacağı gözlənilir.

Gənclərlə işin və qeyri-formal təhsilin keyfiyyətinin yüksəldilməsinin və bu təhsilin tanınmasının təşviqi uzun illərdir ki, Avropa Şurasının Gənclər Sektoru gündəliyində yer alır. Gənclərlə işin və qeyri-formal təhsilin əhəmiyyəti və dəyəri "Gənclərin qeyri-formal təhsilinin/tədrisinin təşviqi və tanınmasına dair" Nazirlər Komitəsinin CM/Rec(2003)8 saylı Tövsiyəsində öz əksini tapmışdır. Qeyri-formal təhsilin gənclərin keyfiyyətli fəaliyyətinin təmin edilməsində metodologiya və yanaşma qismində rolu Nazirlər Komitəsi tərəfindən 2020-ci ildə qəbul edilmiş Avropa Şurasının Gənclər Sektoru strategiyası-2030 çərçivəsində də tanınır. Qeyri-formal təhsil gənclərin özünü inkişaf etdirmək və cəmiyyətin bütün sahələrində tam iştirak etmək məqsədilə bacarıqlara yiyələnməsi və onları tətbiq etməsi üçün mühüm vasitədir.

TRAYAZE Avropa Şurasının Azərbaycanda gənclər üçün qeyri-formal təhsilin həm cəmiyyət tərəfindən tanınmasını, həm də keyfiyyətli inkişafını təşviq etmək istiqamətində çalısan hökumətdəki və qeyri-hökumət təşkilatlarında olan tərəfdaşları ilə müəyyən edilmiş prioritetə cavab olaraq həyata keçirilir.

TRAYAZE təlimçi və təlimçiliyin yayıcısı kimi fəaliyyət göstərmək və Azərbaycanda təhsil və təlim fəaliyyətlərində Avropa Şurasının Gənclər Departamentinin keyfiyyət standartlarını tətbiq etmək üçün müvafiq profili, təcrübəsi və motivasiyası olan ümumilikdə 30-a qədər iştirakçını bir araya gətirməlidir.

Bu fəaliyyət Avropa Şurasının Azərbaycan üçün Fəaliyyət Planı çərçivəsində "Azərbaycanda iştirakçılığa və hüquqa əsaslanan gənclər siyasətinin və dəyərlərə əsaslanan gənclərlə işin inkişafının dəstəklənməsi" layihəsi çərçivəsində təşkil olunub.

## **TRAYAZE** UZUNMÜDDƏTLİ TƏLİM KURSU KİMİ

Uzunmüddətli təlim kursu iştirakçıların potensialının artırılmasına yönələn, onların şəxsi inkişafı və praktik təcrübələri üçün müxtəlif təlim xüsusiyyətlərini və iş üsullarını özündə birləşdirən hərtərəfli və kompleks fəaliyyətdir. TRAYAZE-yə bunlar daxildir:

1. Elektron tədrisə əsaslanan **hazırlıq mərhələsi** (noyabr 2022-ci il)

2. 23-28 noyabr 2022-ci il tarixlərində Bakıda keçiriləcək **ilkin təlim seminarı**. Kursun mühüm elementi olan bu seminar iştirakçıların inkişaf etməsinə və təlim prosesində təşəbbüskarlıq göstərməsinə, qarşıya tədris və inkişaf məqsədlərinin qoyulmasına, kursun institusional və təhsil bazasını mənimsənilməsinə və əsas proqram elementləri üzrə iştirakçıların bacarıqlarının təkmilləşdirilməsinə imkan verəcəkdir. Təlimin məqsədləri təlimçilər, mentorlar və təşkilatçılarla müəyyən ediləcəkdir. Praktik/layihə mərhələsinin formaları və meyarları razılaşdırılacaqdır.

3. **Elektron tədris, mentorluq və şəxsi inkişaf**: Elektron tədris modulları, eləcə də mentorluq və gənclərin öz həmyaşıdlarına dəstək qrupları iştirakçıların öz bacarıqlarını qiymətləndirmələri əsasında öyrənmə imkanlarına və peşəkar inkişafına əlavə dəstək verəcəkdir;

4. **Praktik mərhələ**: 2022-ci ilin dekabrından 2023-cü ilin oktyabrına qədər iştirakçılar meyarlara və təlimin məqsədlərinə uyğun olaraq gənclərin vətəndaşlıq tərbiyəsi və insan hüquqları sahəsində maarifləndirilməsinə dəstək məqsədilə gənclərlə təlim/təhsil layihələri üzrə fəaliyyətlər həyata keçirəcəklər.

5. Layihə və tədris fəaliyyətləri ilə bağlı **aralıq görüşlər**: Bakıda və ya Azərbaycanın digər ərazilərində bəzi iştirakçılarla onların ehtiyacına uyğun olaraq belə görüşlər təşkil oluna bilər.

6. 2023-cü ilin oktyabr və ya noyabr aylarında Strasburqda (vaxt hələ təsdiqlənməlidir) iştirakçıların qiymətləndirilməsinə, tədrisinə və təhsil layihələrinin təsirinə həsr olunan **qiymətləndirmə və konsolidasiya seminarı** keçiriləcək. Seminar həmçinin iştirakçıların bacarıqlarının formalaşdırılmasının konsolidasiyasına (möhkəmləndirilməsinə) yönələn təlim elementlərini özündə ehtiva edəcək.

## Hədəf

Təlim kursunun hədəfi gənclərlə işin və qeyri-formal təhsilin/təlimin əlçatanlığını və cəlbediciliyini artırmaq, gənclərlə iş sahəsində təhsil fəaliyyətinin keyfiyyətini yüksəltmək və Azərbaycanda Avropa Şurasının keyfiyyət standartlarından istifadə etməklə qeyri-formal təhsil fəaliyyətlərini inkişaf etdirmək və tətbiq etmək bacarıqlarına malik təlimçilərin sayını artırmaqdır.

## **Məqsədlər** (ilkin)

- 30 nəfərdən ibarət azərbaycanlı təlimçi və gənc işçilər qrupunun potensialını inkişaf etdirmək və onların gənclər üçün və gənclərlə birlikdə qeyri-formal təhsil layihələrində və fəaliyyətlərində əsas yanaşmaları, konsepsiyaları və təcrübələri tətbiq etməsinə imkan yaratmaq;
- Qeyri-formal təhsil və təlim fəaliyyətlərində keyfiyyət anlayışını və onun Azərbaycanda tətbiqi məsələsini öyrənmək;
- Gənclərlə iş çərçivəsində iştirakçıların qeyri-formal təhsildən istifadə etmək bacarıqlarını artırmaq, o cümlədən onların qeyri-formal təhsilə yanaşmalardan istifadə etmək üçün lazım olan əsas prinsipləri və bacarıqları anlamasına və bu təhsil yanaşmalarının kökündə duran mövqeləri başa düşməsinə imkan yaratmaq;
- Qeyri-formal təhsil fəaliyyətinin təşkili üzrə layihənin tam sikli haqqında iştirakçıların anlayışının artırılmasına dəstək olmaq;
- Gənc işçilərin və təlimçilərin bacarıqlarını mentorluq dəstəyi və təhsil alətləri vasitəsilə artırmaq;
- Azərbaycanda keyfiyyətli təlim fəaliyyətlərini inkişaf etdirməyə və həyata keçirməyə qadir olan mövcud təcrübəli təlimçilər qrupunu genişləndirmək və mövcud təlimçilər şəbəkəsinin gələcək inkişafına dəstək vermək.

## Kurs çərçivəsində formalaşdırılacaq bacarıqlar

Təlim kursu iştirakçıların keyfiyyətli qeyri-formal təhsil fəaliyyətini həyata keçirmələri üçün zəruri olan bacarıqlarının formalaşmasına töhfə verəcək və Azərbaycanda gənclərlə iş və gənclər siyasətinin inkişafına dəstək olacaqdır. İnsan hüquqları və vətəndaşlıq tərbiyəsi sahəsində təhsilin

və qeyri-formal tədrisin, habelə gənclərlə iş və gənclər siyasətinin əsas konsepsiyaları və praktik tətbiqi barədə məlumatlar iştirakçılara təqdim olunacaqdır.

Kursun məzmunu və metodologiyası elə tərtib olunacaqdır ki, iştirakçılar gənclərlə iş sahəsində qeyri-formal təhsil yanaşmalarını istifadə etməyə bacarsınlar, təlimçilər üçün vacib olan bilik və bacarıqları inkişaf etdirməklə təlim proseslərində təlimçi və ya fasilitator qismində çıxış edə bilsinlər.

## Metodologiya

Təlim kursu təlimçilərin və gənc işçilərin Avropa Şurasının gənclərlə iş sahəsində yanaşmaları və standartları haqqında biliklərinə töhfə verəcək. Təlimçilər üçün uzunmüddətli təlim kursunun məzmunu və metodologiyası qeyri-formal təhsil prinsiplərinə əsaslanacaq: kurs təcrübi (empirik) tədrisə əsaslanacaq və xüsusən kursun konkret məqsədləri nəzərə alınmaqla iştirakçı yönümlü və iştirakçılar tərəfindən həyata keçirilən proses olacaq. Kurs iştirakçı-təlimçilərə imkan verəcəkdir ki, empirik tədris yanaşmalarına əsaslanmaqla insan hüquqları sahəsində təhsil üçün önəmli olan fəaliyyətlər və konsepsiyalar üzərində təlimçi prizmasından düşünsünlər və onları təlimçi prizmasından tətbiq etsinlər. Kursun konsepsiyasında mərkəzi yeri qeyri-formal tədris layihəsi/praktikası tutacaq və hər bir iştirakçının layihə mərhələsində onu həyata keçirməsi tələb olunacaq. Proqram iştirakçıları arasında gənc həmyaşıdlarının tədrisini dəstəkləmək üçün Avropa Şurasının Gənclər Departamenti çərçivəsində və ondan kənarda qeyri-formal fəaliyyətlərin təşkili üzrə təcrübə mübadiləsi və qabaqcıl təcrübələrin öyrənilməsi elementlərini özündə ehtiva edəcəkdir.

## İştirakçılar

TRAYAZE gənclərlə işləyən və aşağıdakı sahələrdə fəaliyyət göstərən azərbaycanlı təlimçilər və gənc işçilər üçün təşkil olunur:

- Gənclər siyasətinin həyata keçirilməsinə cavabdeh olan milli və yerli hakimiyyət orqanları;
- Gənclər Evləri/Mərkəzləri, Gənclərin İnkişaf və Karyera Mərkəzləri, sosial və təhsil müəssisələri;
- Azərbaycanda gənclərlə işləyən QHT-lər və digər ictimai təşkilatlar;
- Azərbaycanda gənclərlə iş və gənclər siyasəti ilə bağlı layihə.

Bütün iştirakçılar:

- Azərbaycan sakini (rezident) olmalı;
- yaşı 18-35 arasında olmalı (istisnalar mümkündür);
- gənclər siyasəti və gənclərlə iş məsələləri üzrə işləməkdə maraqlı olmalı;
- gənclərlə qeyri-formal təhsil haqqında anlayış və təcrübələrini inkişaf etdirməkdə maraqlı olmalı;
- kurs zamanı əldə edilmiş təcrübə və bilikləri artırmağa və gənclərlə iş/gənclər siyasəti sahəsində fəaliyyət göstərməyə hazır olmalı;
- Azərbaycan dilində və imkan daxilində ingilis dilində (bu dili bilmək üstünlük sayılır) ünsiyyət qurmağı bacarmalı;
- kursun bütün mərhələlərində tam iştiraka hazır olmalı;
- praktik mərhələdə öz layihələrini hansı gənclər təşkilatı və ya qurumları çərçivəsində həyata keçirəcəklərsə, onlar tərəfindən dəstəklənməlidirlər.

## TRAYAZE çərçivəsində iştirakçıların yerli gənclər layihələrinin rolu

Hər bir iştirakçının gənclərin fəal iştirakına əsaslanan təhsil layihəsi hazırlayacağı və qeyri-formal təhsilin prinsip və metodlarından istifadə edəcəyi gözlənilir.

## İşlək dillər

Kurs üçün təklif olunan dillər Azərbaycan və ingilis dilidir; kursda istifadə olunacaq dillər həmin dillərdə həm iştirakçıların, həm də təlimçilərin bilik səviyyəsindən asılı olacaq.

## Texniki məlumatlar və iştirakın maliyyə şərtləri

**Tarixlər**: İlk canlı seminar 23 noyabr 2022-ci il saat 09:30-da başlayacaq və 28 noyabr 2022-ci il saat 18:00-da başa çatacaqdır.
**Yer**: Bakı, Azərbaycan.
**İşlək dillər**: Azərbaycan və ingilis dilləri.
**İştirakın maliyyə şərtləri**: Avropa Şurası bütün iştirakçıları kurs zamanı qalmaq üçün yerlə və yeməklə təmin edəcək.

## Müraciət və seçim prosedurları

Bütün maraqlı namizədlər 21 oktyabr 2022-ci il saat 23:59-a qədər Avropa Şurasının Gənclər Departamentinin https://youthapplications.coe.int/Application-forms platforması üzərindən onlayn ərizə formasını doldurmağa dəvət olunurlar.
Onlayn ərizəyə gənclər təşkilatı və ya qurumunun dəstək məktubu əlavə edilməli, orada aşağıdakılar göstərilməlidir:

- TRAYAZE-də iştirakın təşkilatın missiyasına necə kömək edəcəyi;
- təşkilatın kurs zamanı iştirakçıya necə dəstək olacağı.

Bütün iştirakçılar doldurulmuş ərizə forması əsasında həmtəşkilatçılar tərəfindən iştirakçıların unikal təcrübəsi, motivasiyası və bütövlükdə qrupdakı müxtəliflik balansı nəzərə alınmaqla seçiləcək. Seçilmiş ərizəçilər hazırlaşmaları üçün əlavə məlumat və təlimat alacaqlar.

## Əlavə məlumat

Rüstəm Abdullayev, Avropa Şurasının Gənclər Departamentinin proqramlar üzrə əməkdaşı: Rustam.abdullayev@coe.int və Zülfiyyə Mustafayeva, Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyinin aparıcı məsləhətçisi: Zulfiyya.mustafayeva@mys.gov.az

## Avropa Şurası və Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyinin digər birgə fəaliyyətləri

Əgər siz gənclərlə beynəlxalq iş, insan hüquqları üzrə təhsil və mədəniyyətlərarası dialoq sahəsində digər tədbirlərdə iştirak etmək istəyirsinizsə, lütfən aşağıdakı internet səhifələrinə daxil olun:
www.coe.int/youth
www.mys.gov.az